SEVDA MƏMMƏDƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

Alim, fəlsəfə elmləri doktoru, professor, əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Sevda Yusif qızı Məmmədəliyeva 1946-cı il noyabrın 14-də Bakı şəhərində akademik ailəsində anadan olmuşdur.

1962	Bakı şəhər 6 saylı orta məktəbi eksternat qaydası ilə və Bakı şəhər 2 saylı Uşaq Musiqi məktəbini bitirmişdir.
1962	Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) daxil olmuşdur.
1967	Bakı Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişdir.
1967	Azərbaycan Milli Elmlər Akademiyasının aspiranturasına daxil olaraq elmi fəaliyyətə başlamışdır.
1970-1983	Namizədlik disertasiyasını müdafiə etdikdən sonra AMEA-nın elmi-tədqiqat institutlarında əvvəl kiçik elmi işçi, sonradan böyük elmi işçi vəzifələrində çalışmışdır.
1974	S. Məmmədəliyeva böyük elmi işçi adına yiyələnmişdir.
1983	Dosent elmi adlarına yiyələnmişdir.
1983	S. Məmmədəliyeva Azərbaycan Memarlıq və İnşaat Universitetində pedaqoji fəaliyyətə başlayaraq, ardıcıl olaraq dosent, professor, kafedra müdiri vəzifələrində işləmişdir.
1987	Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda bir illik stajirovka keçir.
1994	Yanvar ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun İxtisaslaşdırılmış elmi şurasında 090011 – "Sosial fəlsəfə" ixtisası üzrə doktorluq dissertasiyasını uğurla müdafiə edir və fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır.

1996	Elm, mədəniyyət və təhsil sahəsində xidmətlərinə görə S. Məmmədəliyeva "Bilik" Azərbaycan Maarif Cəmiyyətinin medalı ilə təltif olunaraq akademik Yusuf Məmmədəliyev adına mükafatın laureatı olmuşdur.
1997	S.Məmmədəliyevaya professor elmi adı verilmişdir.
1997	Sosial fəlsəfə üzrə silsilə işlərinə görə o, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir.
1998	Prezident seçkilərində Heydər Əliyevin vəkili kimi fəal iştirak etmişdir.
1999	S. Məmmədəliyeva Azərbaycan Memarlıq və İnşaat Universitetinin kafedra müdiri vəzifəsinə seçilir.
1999	Avqust ayının 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə S. Məmmədəliyeva Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini təyin edilmişdir.
1999	Avropa Şurasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin üzvü, Mədəniyyət üzrə Komitənin bütün iclaslarının iştirakçısıdır.
1999	Rusiya Ekoloji Akademiyasının əcnəbi üzvü, 2000-ci ildə NOOSFERA Beynəlxalq Akademiyasının həqiqi üzvü seçilmişdir.
1999	Nizami Məmmədovla birliktə yazdığı “Mədəniyyət, ekologiya, təhsil” kitabı çap olunmuşdur.
2000	NOOSFERA Beynəlxalq Akademiyasının həqiqi üzvü seçilib.
2001	S. Məmmədəliyeva Azərbaycan Milli Elmlər Akademiyasının "Fəlsəfə" ixtisası üzrə müxbir üzvü seçilmişdir.
2005	Fransız Elmi Cəmiyyətinin medalı ilə təltif olunmuşdur.

2003	"Azərbaycanda mədəniyyət siyasəti" kitabı çap olunmuşdur.
2005	Fransız Elmi Cəmiyyətinin medalı ilə təltif edilib.
2006	"Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri" kitabı çap olunmuşdur.
2008	Fransanın "İncəsənət və Ədəbiyyat" ordeninin zabit dərəcəsinə layiq görülmüşdür.
2009	İslam ölkələri mədəniyyət nazirlərinin VI Konfransının Təşkilat Komitəsinin sədr müavini və Beynəlxalq İşçi Qrupunun rəhbəri olub.
2009–2023	UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş on yeddi qeyri-maddi mədəni irs nümunəsinin namizədlik sənədləri və onların elmi əsaslandırılması S.Məmmədəliyevanın rəhbərliyi altında işlənib hazırlanmışdır.
2013	İtaliya Respublikasının "Şərəf" ordeni ilə təltif olunmuşdur. AMEA-nın Humanitar və İctimai Elmlər bölməsinin Bürosuna üzv seçilib.
2015	Avstriyanın elm və incəsənət üzrə fəxri xaç ordeninə layiq görülmüşdür.
2016	3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur. Bakıda keçirilmiş BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Təşkilat Komitəsinin sədr müavini olub.
2017	Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının Fərmanı ilə təltif edilib
2018	Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikası-nın Mədəniyyət Nazirliyi yaradıldıqdan sonra mədəniyyət nazirinin müavini təyin edilib.

2019	2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.
2020–2023	İşğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeyləri komplekslərinin elmi konsepsiya-larının hazırlanması və zəruri materialların toplanması, beynəlxalq tərəfdaşlarla birgə layihələndirmə işlərinin həyata keçirilməsi prosesinə rəhbərlik edib.
2023	Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini vəzifəsindən azad edilmişdir.
2024	Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.
2024	Nizami Məmmədovla birliktə yazdığı “Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid” kitabı çap olunmuşdur.